QƏRBİ AZƏRBAYCAN






XX əsrin bəlası - Deportasiya

# İRƏVANDA AZƏRBAYCAN ƏDƏBİ-MƏDƏNİ MÜHİTİ YENİ PARADİQMAL TƏQDİMATDA

## (XIX əsrin sonu - XX əsrin əvvəllərində)

**Hər bir millətin ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında mühitin rolu danılmazdır. Burada uzun zamanların sınağından çıxmış ənənələrin mövcudluğu heç də az rol oynamır. Bundan başqa, mühitin yaranmasında əhəmiyyətli olan ictimai-siyasi, sosial və digər amillərin dominantlığını da unutmaq olmaz. Qeyd etmək lazımdır ki, mühitin yaranmasını stimullaşdıran dəyərlər vardır. Mühit yoxdursa, orada nə yaxşı, nə də pis dəyər yoxdur. Əgər mühit müəyyən ölçüləri, tələbləri, prinsipləri təmin edirsə, bu, inkişafın göstəricisidir.**

Dünya yaranandan indiyə qədər müxtəlif mühitlər olub və onlar dəyişib, yenilənib, bəzən də aradan çıxıb. Bu mənada ədəbi-mədəni mühit tarixi çox qədim olan sosial strukturdur.

Qeyd etmək lazımdır ki, İrəvanda Azərbaycan ədəbi-mədəni mühiti uzun onilliklər boyu fundamental şəkildə araşdırılmamışdır. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatından, tarixindən, mədəniyyətindən, iqtisadiyyatndan, təhsilindən söhbət gedərkən həmişə əzəli və əbədi tarixi torpaqlarımız diqqətdən kənarda qalmış, natamam tədqiqatlar aparılmışdır. Nəticədə isə xalqa, millətə aid olan bütöv ədəbiyyat, tarix, dil, mədəniyyət yazılmamış qalır. Odur ki, bu məsələlər əzəli torpaqlarımız da nəzərə alınmaqla öyrənilməlidir.

Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il, Prezident İlham Əliyevin "İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında" 29 dekabr 2006-cı il, "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il tarixli sərəncamları və digər fərmanları Qərbi Azərbaycanda ədəbi və milli maarifçilik mühitinin dərindən araşdırılması baxımından aktuallıq kəsb edir, təhsil tariximizin ümumiləşdirilmiş və kompleks şəkildə öyrənilməsinə xidmət edir və sistemləşdirməyə imkan verir. Bu baxımdan milli təhsil tariximizdə özünəməxsus yeri və rolu olan İrəvan Azərbaycan Pedaqoji Məktəbi də istisna deyil.

Məlumdur ki, XX əsrin əvvəllərinə qədər İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş xeyli alimlər, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin yaradıcılığı da bunu təsdiq edir. Görkəmli alim, pedaqoq, dilimizin saflığı uğrunda böyük mübariz Firudin bəy Köçərli XIX əsrin axırlarında İrəvan gimnaziyasında dərs deyərkən "Azərbaycan ədəbiyyatı" adlı əsərinə materiallar toplamış, burada Məşədi İsmayıl Hacı Kazımzadə - "Bəzmi" (1846-1888), Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov "Mütəlle" (1832-1892), Hacı Seyid Rza Ənürzadə - "Sabir" (1842-1906), Mirzə Əlixan Şəmsül Hükəma - "Ləli" (1845-1907) kimi şairlərin yazıb-yaratdıqlarını göstərmişdir. Bu şairlərin əsərlərindən verdiyi nümunələr əsasında Firudin bəy Köçərli sübut edir ki, İrəvan şairləri əruz vəznində gözəl şeirlər yazmışlar. Həmin dövrlərdə Mirzə Hüseyn Ağa, Mirzə Cabbar Əsgərzadə, Axund Məmmədbağır Qazızadə, Mirzə Cabbar Məmmədzadə, Cəfər bəy Cəfərbəyov, İbadulla bəy Muğanlinski, Abbasağa Əli oğlu Fərəcov, Abbas Razi Məmmədzadə, Mirzə Hüseyn Həsənzadə İrəvani, Tərlan xanım Sultanova, Mirməhəmməd Mirfətullayev və onlarla ədəbiyyat, maarif xadimləri İrəvanın ədəbi mədəni həyatında fəal iştirak etmişlər. Bir çox görkəmli şair və yazıçılar, maarif xadimləri - Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Haşım bəy Vəzirov, Abbas Səhhət, Cəlil Məmmədquluzadə, Həmid bəy Şaxtaxtinski, Abdulla Şaiq, Bəkir Çobanzadə və başqaları İrəvan ədəbi-mədəni mühitinin aparıcı simaları ilə sıx dostluq və yaradıcılıq əlaqələrində olmuşlar. H.Vəzirov, E.Sultanov, C.Məmmədquluzadə hələ inqilabdan əvvəl İrəvanda işləmiş, ədəbi fəaliyyətlərini burada davam etdirmişlər. Bu dostluq və yaradıcılıq əlaqələri İrəvanda ədəbi-mədəni mühitin daha da canlanmasına təsir göstərmişdi.

XIX əsrin 70-ci illərinədək Cənubi Qafqazda dünyəvi fənlər tədris edən məktəb, müxtəlif fənlərdən dərs demək üçün pedaqoji kadr hazırlayan hər hansı bir təhsil ocağı yox idi. Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Lakin mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, inkişaf prosesini ləngitmişdir. İrəvanda və bölgələrdə milli maarifin inkişafı, təhsilin yeni tədris üsulları ilə aparılması XIX əsrin 70-ci illərində dünyəvi məktəblərin meydana gəlməsini zəruri edirdi. Azərbaycanlı əhali arasında getdikcə elmə, təhsilə olan maraq və meyil yeni üsullu məktəblərin öz yerini möhkəmlətməsinə, köhnə tipli dini məktəblərin, mollaxanaların, mədrəsələrin nüfuzdan düşməsinə səbəb olurdu. Artıq XIX əsrin 70-ci illərində Azərbaycan dilində dünyəvi təhsil verən xeyli sayda məktəblər açıldı.

Elmin əsaslarını yeni üsulla tədris edən dünyəvi Azərbaycan məktəbləri 1880-ci ildə İrəvanda (95 şagird, müəllim Ələsgər Hacı Məmməd Əli oğlu Kərimov), 1881-ci ildə Uluxanlıda (24 şagird, 2 sinifli, müəllimlər Xanlar bəy Həsənbəyov, Molla Axund Hacı Məşədi Hüseyn oğlu Axundov, Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev, Əbdüləli Bağır oğlu Muxtarov, Rəhim Xəlilov), İrəvanda (76 şagird, müəllimlər Axund Məmməd Bağır Qazızadə, Rəhim Xəlilov), 1883-cü ildə Böyük Vedidə (30 şagird, müəllimlər Kərim bəy İsmayılov, Molla Məmməd Molla oğlu Hacıyev, Balasultan Şadlinşki, Təhməz bəy Qulubəyov, Molla Mamed Mamoyev), 1883-cü ildə İmanşalıda (54 şagird), Üçmüədzin qəzasının Qurduqulu kəndində (67 şagird), 1884-cü ildə Sürməli qəzasının Aralıx Başkəndində (1 sinifli, 15 şagird, müəllimlər Əbdüləzim Kəngərlinski, Abbas Bəhram Qulu oğlu, Alay bəy Əli Ağa oğlu, Məşədi Bilas Hacı Ələkbər oğlu), 1884-cü ildə İrəvanda (3 sinifli şəhər məktəbi, müəllimlər Fərəc bəy Sultanov, Əli Tağı oğlu Hüseynzadə, Məşədi İsmayıl Kazım oğlu), Basarkeçərdə (60 şagird, müəllimlər Molla Abdulla Əli oğlu, Molla Mustafa Hacı Gəncəli oğlu), 1885-ci ildə Göyçə mahalının Zod kəndində (müəllimlər Mirzə Bəylər və Mirzə Əsgər), 1890-cı ildə Qəmərlidə (2 sinifli, 112 şagird, müəllimlər Mirzə Məhəmməd Axundov, Salman Şəfibəyov, Cəlil Mamed oğlu Mirzəyev), 1890-cı ildə Çobankərədə (15 şagird, müəllimlər İlya bəy Mahmudbəyov, Mirzə Nağı Molla Zaman oğlu) və başqa bölgələrdə də açılaraq fəaliyyət göstərmişdir.

1915-ci ilədək İrəvan quberniyasında çar hökuməti və xüsusi şəxslər: İbadulla bəy Muğanlinski, Mirzə Cabbar Məmmədzadə, Mirzə Rza, Mirzə Qafar Məmmədzadə, Mirzə Əli Məhəmməd Xəlilov və başqaları tərəfindən 30 ibtidai məktəb açılmışdır. 1 yanvar 1911-ci ilə kimi İrəvan quberniyasında təhsil alan azərbaycanlıların sayı 1932 nəfər olmuşdur ki, onlardan da 123 nəfəri qadın idi.

Araşdırmalar təsdiq edir ki, həmin dünyəvi məktəblərin açılmasında böyük rol oynayan, orada dərs deyən və həmin müəllimlərin əksəriyyəti İrəvan gimnaziyasının və Müəllimlər seminariyasının məzunları olmuş və milli mədəniyyətimizin inkişafı üçün var qüvvələri ilə çalışmışlar. Bu məktəblərdə daha çox imtiyazlı ailələrin uşaqlan təhsil alırdılar. Bir çox mütərəqqi fikirli ziyalılar azərbaycanlı uşaqları ana dilimizdə təhsil verən dünyəvi məktəblərdə təhsil almağa cəlb etmək üçün ciddi səy göstərirdilər. Hələ 1850-ci ildə yanvar ayının 1-də İrəvanda açılmış Ripsimiyi adına ilk qızlar məktəbində 7 nəfər azərbaycanlı qız təhsil almışdır ki, burada Azərbaycan dilini Seyid Molla Mir Mehdi tədris etmişdi. Məktəbdə illik təhsil haqqı 60, yarımillik təhsil haqqı isə 30 rubl idi.

XIX əsrin sonlarında Bakıda, müxtəlif bölgə və şəhərlərdə yeni tipli məktəblər açıldığı kimi, İrəvanda da bu sahədə təşəbbüs və xidmət göstərən qabaqcıl ziyalılar olmuşdur. Bu ziyalılar arasında İrəvanda yaşayıb-yaradan Mirzə Kazım bəy Əsgərzadə Axund Əhmədovun "Mütəlle" (1832-1892) 1880-ci illərdə İrəvanda açdığı dünyəvi məktəb səmərəli fəaliyyət göstərmişdir. O, tədrisin yeni üsullarla aparılmasında, azərbaycanlı balalarının savadlanmasında çox böyük rol oynamışdır. Onun açdığı məktəbdə hesab, ana dilinin sərf nəhvi, fars dili və nitq fənləri tədris edilirdi. Mirzə Kazım bəy Əsgərzadə Axund Əhmədov İrəvan gimnaziyasının ehtiyat siniflərində dərs deyən Çistyakovla yaxın dost olmuş, onunla maarifçilik sahəsində səmərəli əməkdaşlıq etmişdir. O, M.F.Axundovun yeni əlifba ideyasını dəstəkləyənlərdən biri kimi onun həyata keçməsi üçün böyük səy göstərmişdir. Mirzə Kazım bəy Əsgərzadə Axund Əhmədov zəkalı, açıq fikirli, fədakar ziyalı kimi İrəvanda böyük nüfuz sahibi olmuşdur.



Mirzə Cabbar Məmmədzadə

1881-ci ildə İrəvanda yeni tipli "Üsuli cədid" məktəbinin əsasını Mirzə Əli Məhəmməd Xəlilov qoymuşdur. Maarifpərvər ziyalının açdığı "Üsuli cədid" məktəbi də səmərəli fəaliyyət göstərmişdir.

İrəvanda yaşayıb-yaratmış, Məşədi İsmayıl Hacı Kazımzadənin ("Bəzmi") də öz məktəbi olmuşdur ki, burada da uşaqlara dünyəvi ibtidai təhsil verilirdi. İrəvanın ədəbi-mədəni həyatında fəal iştirak edən Məşədi İsmayıl Hacı Kazımzadə ömrünün 20 ilini maarif sahəsinə həsr etmişdir. O, 1882-ci ildə İrəvan şəhərində açdığı 3 sinifli məktəbində Fərəc bəy Sultanov, Əli Tağı oğlu Hüseynzadə ilə birlikdə ana dilini tədris etmişdir. Məktəbdə ilk ildə 14 nəfər təhsil almışdı, burada tatar (Azərbaycan) dili ilə yanaşı, rus dili və hesab fənləri də tədris edilirdi. Firudun bəy Köçərli Məşədi İsmayıl Hacı Kazımzadə haqqında yazırdı: "Mən 1885-ci ildə İrəvan gimnaziyasına müəllim təyin olunan vaxtlarda Məşədi İsmayıl Hacı Kazımzadə ilə tanış olub, onun tədris üsulları ilə tanış olmaq üçün məktəbinə gedib uşaqların təlimi ilə hədsiz şövqlə məşğul olduğunu görüb, onunla yaxınlaşmağa və dostluq əlaqəsində olmağa səy göstərərdim. Amma əcəl fürsət vermədi. O, cənabın dostluğundan bizi məhrum eylədi". Onu da qeyd edək ki, Məşədi İsmayıl Hacı Kazımzadə "Bəzmi" təxəllüsü ilə xeyli müxəmməs, rübai, qəsidə və qəzəllər yazmışdır. Məşədi İsmayıl Hacı Kazımzadənin yaradıcılığını diqqətlə izlədikdə onun poetik nümunələrinin əksəriyyətinin dərs dediyi uşaqlara, onların təlim-tərbiyəsinə, yaxşı təhsil alıb savadlı olmalarına həsr edildiyi qabarıq şəkildə özünü göstərir. Onun "Gül oğlum" adlı böyük həcmli şeiri və digər şeirləri də məhz bu qəbildəndir. Yeri gəlmişkən, onu da qeyd edək ki, İrəvan dram teatrında 1882-ci ildə ilk dəfə səhnəyə qoyulan əsərin müəllifi də məhz Məşədi İsmayıl Hacı Kazımzadə olmuşdur. 1881-ci ildə yazdığı "Tamahkarlıq düşmən qazanır" adlı əsəri ilk dəfə 1882-ci ildə İrəvanda teatr səhnəsində oynanılmışdır. Həmin əsərlə İrəvanda Azərbaycan teatrının əsası qoyulmuşdur. Tamaşadakı Hacı Fərəc rolunu da elə özü ifa etmişdir. Göründüyü kimi, Məşədi İsmayıl Hacı Kazımzadə ("Bəzmi") İrəvanda maarifin, teatrın, mədəniyyətin, milli intibahın tərəqqisi naminə çalışan, fədakarlıq göstərən ən fəal ziyalılarımızdan olmuşdur.



Mirzə Cabbar Məmmədzadə,
Mirzə Abbas Məmmədzadə,
İbadulla bəy Muğanlinski

İrəvanda milli maarifçilik sahəsindən danışarkən burada fəaliyyət göstərən, qabaqcıl ziyalılardan Məmmədqulu bəy Kəngərlinskidən (Kərim Soltan) də söhbət açmaq lazımdır. O, 1864-cü ildə Naxçıvan şəhərində hərbi qulluqçu mayor Şəfi ağanın ailəsində doğulmuşdur. İlk təhsilini valideynlərindən aldıqdan sonra Tiflisdəki Kadet korpusuna - hərbi məktəbə daxil olmuşdur. 1884-cü ildə zabit rütbəsi alan Məmmədqulu bəy Kəngərlinski 13 il hərbi xidmətdə qulluq etdikdən sonra 1893-cü ildə ştabs kapitan rütbəsi ilə hərbi qulluqdan uzaqlaşıb öz bacarıq və qabiliyyəti, elmi, savadı və qələmi ilə xalqına xidmət etmək, fayda vermək kimi çətin və şərəfli bir missiyanı həyata keçirməyə başlamışdır. 1901-ci ildə Bakıda H.Z.Tağıyevin öz vəsaiti hesabına açdığı Müsəlman qız məktəbinin sədası qısa zamanda bütün Cənubi Qafqaza yayılmışdı. Sözsüz ki, o dövrdə qızların təhsil alması, oxuması çox çətin məsələ idi. Amma buna baxmayaraq, XIX əsrin sonlarında azərbaycanlı qızlar üçün dünyəvi məktəblər açmaq məsələsi bir zərurət kimi meydana çıxmışdı. Həmin ildə İrəvan şəhərində Məmmədqulu bəy Kəngərli də öz şəxsi vəsaiti hesabına ilk müsəlman Leyli qız məktəbini açmışdı. Həmin məktəbdə 4 nəfər azərbaycanlı qız təhsil alırdısa, dərs ilinin sonunda təhsil alan azərbaycanlı qızların sayı 12 nəfər, 1902-ci ildə isə 20 nəfər olmuşdur. Başqa məktəblərdən fərqli olaraq burada təhsil pulsuz idi. Məmmədqulu bəy açdığı bu məktəbdə şagirdlərin rus, alman, fransız dillərində mükəmməl təhsil alması üçün müxtəlif ölkələrdən ixtisaslı müəllimlər dəvət etmişdi. Maarifpərvər bir insan olan Məmməd Vəli Qəmərlinski 1903-cü ildə Qızlar məktəbində şəriət müəllimi kimi fəaliyyət göstərmişdir. Məmməqulu bəyin açdığı məktəblərdən hər il 8-10 nəfər müxtəlif şəhərlərdə fəaliyyət göstərən dövlət gimnaziyalarına təhsil almağa göndərilirdi.



Mirzə Əlixan Hükəma Ləli

Fransız, rus dillərini mükəmməl bilən Məmmədqulu bəy İrəvanın mədəni həyatı ilə yanaşı, ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. O, 1905-ci ildə İrəvanda ermənilərin azərbayanlılara qarşı törətdikləri qırğınlar zamanı azərbaycanlı əhalinin hüquqlarının qorunması uğrunda yerli ziyalılarla birlikdə böyük fədakarlıq göstərmişdir. 1905-ci il hadisələri ilə bağlı Peterburqa gedən nümayəndə heyətinin tərkibində tanınmış vəkil Məmmədqulu bəy Kəngərlinski də iştirak etmişdi. Burada bir sıra mühüm sənədlərin hazırlanmasında bir vəkil kimi Məmmədqulu bəy Kəngərlinski yaxından iştirak etmiş, həmin sənədlərdə ermənilərə verilmiş hüquqların azərbaycanlılara da şamil edilməsi öz əksini tapmışdı. Məmmədqulu bəy Kəngərlinskinin öz xalqının hüquqlarını qətiyyətlə və cəsarətlə müdafiə etməsi erməni şovinistlərinin xoşuna gəlməmiş, ona görə də ona ölüm hökmü çıxarmışdılar. 1905-ci il qırğınları zamanı Məmmədqulu bəyin İrəvanda açdığı məktəblər də fəaliyyətini dayandırmışdır.

29 mart 1898-ci ildə İrəvanın maarifpərvər ziyalıları öz hesablarına yeni tipli məktəb açmaq üçün yığıncaq keçirmişlər. Bu ideyanı həyata keçirmək üçün yığıncaqda 14 nəfərdən ibarət komissiya təşkil edilmiş, həmin komissiyanın sədri Abbasqulu xan İrəvanski seçilmişdi. Qısa zamanda komissiya üzvlərinin maddi-mənəvi dəstəyi sayəsində İrəvanda rus-tatar məktəbi fəaliyyətə başlamışdı. Abbasqulu xan İrəvanski məktəbin fəxri nəzarətçisi, Haşım bəy Nərimanbəyov isə nəzarətçi təyin edilmişdi. Haşım bəy 20 ilə yaxın həmin məktəbdə müəllimlik etməklə yanaşı, həm də məktəbin müdiri vəzifəsində çalışmışdır. Bu məktəb İrəvan quberniyasında ən nümunəvi təhsil ocaqlarından olmuşdur. Bu gün də el arasında həmin məktəb "Haşım bəy məktəbi" kimi xatırlanır. Haşım bəy İrəvanda fəaliyyət göstərən "Maarifçilik cəmiyyəti"nin ən fəal üzvlərindən idi. O, İrəvan Müəllimlər Seminariyasının, gimnaziyasının və rus-tatar məktəbinin müəllimləri tərəfindən yazılmış və 1911-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr edilmiş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biridir. Haşım bəy eyni zamanda 1912-ci ildən 1917-ci ilin sentyabr ayına qədər İrəvanda Ripsimiye gimnaziyasında Azərbaycan dili dərsi demişdir. İrəvan rus-tatar məktəbində Həsən bəy Qazıyev rus dilini, Məmməd Vəli Qəmərlinski Azərbaycan dilini, Axund Mirzə Abdulla bəy Qazıyev isə şəriət fənnini tədris etmişlər. Qeyd edim ki, Axund Mirzə Abdulla bəy Qazıyev həm də İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. Həmid bəy Xəlil bəy oğlu Şahtaxtinski İrəvan Müəllimlər Seminariyası ilə yanaşı, həm də rus-tatar məktəbində dərs demişdi.

İrəvanın mədəni həyatında fəal iştirak edən, burada Azərbaycan teatrının inkişafında böyük xidmətləri olan, bir sıra tamaşalarda müxtəlif rolları məharətlə ifa edən Mirzə Mustafa Rəcəbov da 1906-cı illərdə rus-tatar məktəbində dərs demişdir. Yuxarıda adlarını qeyd etdiyimiz, milli intibaha yol açan maarif mədəniyyət ocaqları 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı fəaliyyətlərini dayandırmışdır. Bu maarif və mədəniyyət ocaqlannda çalışan azərbaycanlı ziyalıların, müəllimlərin, təhsil alan tələbələrin bir qismi həmin qətliamlar zamanı qəddarcasına qətlə yetirilmiş, bir qismi isə öz tarixi və doğma yurdlarını tərk etməyə məcbur olmuşdu. Bununla da İrəvanda soydaşlarımızın ictimai siyasi, ədəbi mədəni həyatı tənəzzülə uğramış, onun görkəmli nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük rol oynamış Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Abbas Razi Məmmədzadə, Əhməd Rəcəbli, Əhməd Cəmil, Cəfər Xəndan, Mirzə Hüseyn Ağa, Ağa Məhəmməd Hüseyn İrəvanlı, Heydər Hüseynov, Maqsud Məmmədov, Səid Rüstəmov, Bəhmən Axundov, Mirzə Cabbar Məmmədzadə, Cabbar Əsgərzadə, Həsən Seyidov, Cabbar Məcnunbəyov, Əli Məhzun və başqa görkəmli şəxsiyyətlərin ailələri də bu dövrdə öz doğma ocaqlarını tərk etməyə məcbur olmuşlar.

**Cəlal ALLAHVERDİYEV,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent.**